# Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri Gəncədə olub



Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auld Gəncəyə səfər edib. Səfər çərçivəsində səfir şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramovla görüşüb. Görüşdə bir sıra məsələlər müzakirə olunub.

Niyazi Bayramov qonağa qədim tarixə malik Gəncə haqqında ətraflı məlumat verib. Qeyd edib ki, Gəncə Azərbaycanın ikinci böyük şəhəridir və burada bir sıra sənaye müəssisələri fəaliyyət göstərir. Bu isə xarici investorların şəhərə cəlb olunmasına şərait yaradır. Gəncədə elm və təhsil sahəsinə də yetərincə diqqət yetirildiyini bildirən ŞİH-nin başçısı vurğulayıb ki, şəhərdəki 3 universitet xarici ölkələrlə tələbə və müəllim mübadiləsi aparır: "Bu da Böyük Britaniya ilə Gəncə arasında daha bir əməkdaşlığa yol açır". Niyazi Bayramov daha sonra qeyd edib ki, Prezident İlham Əliyevin tapşırığı ilə Gəncədə Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən dəstəklənən Yaşıl Şəhər Fəaliyyət Planının hazırlanması istiqamətində işlər aparılır: "Böyük Britaniyanın "ATKİNS Global" şirkətinin də bu layihəyə dəstək olduğunu bildirib. "Yaşıl şəhərlər" proqramı çərçivəsində icra olunacaq layihələr Gəncə şəhərinə ən aktual ekoloji problemləri, iqlim dəyişikliyi risklərini müəyyən etmək və prioritetləşdirməkdə kömək edəcək".

Səfir Fergus Auld səmimi görüşə görə şəhər rəhbərinə minnətdarlığını bildirib və səfərin əsas məqsədinin ikitərəfli əməkdaşlığın genişləndirilməsi olduğunu qeyd edib. Diplomat vurğulayıb ki, Böyük Britaniyadakı ali təhsil müəssisələri ilə Gəncədə fəaliyyət göstərən universitetlər arasında əməkdaşlıq əlaqələrinin qurulmasına dəstək olmağa hazırdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auldn, bp-nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli, "British Council" təşkilatının Azərbaycandakı nümayəndəliyinin direktoru Nərgiz Hacıyeva və təşkilatın digər əməkdaşları Gəncə şəhərinə səfərləri çərçivəsində Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) olmuşlar.



Qonaqlarla görüşən universitetin rektoru vəzifəsini icra edən Zəfər Qurbanov ADAU-nun maddi-texniki bazası, beynəlxalq əlaqələri və ikili diplom proqramları haqqında məlumat verib.

Səfir Fergus Auldn Britaniyanın ali təhsil müəssisələri ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasında əməkdaşlıq əlaqələrinin qurulmasına dəstək verməyə hazır olduğunu bildirib. Bəxtiyar Aslanbəyli isə bp-nin həyata keçirdiyi layihələr və proqramlar haqqında məlumat verib, ADAU ilə birgə layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Qarşılıqlı əməkdaşlıq perspektivlərinin müzakirə olunduğu görüşdən sonra qonaqlar universitetin Aqronomluq fakültəsinin tədris binasında yerləşən laboratoriyalarla tanış olublar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 1 dekabr.- S.10.